UOT 372.3/.4

***Səriyyə Səfər qızı Hüseynli***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dillər Universiteti*

# İBTİDAİ SİNİFLƏRDƏ İNCƏSƏNƏT NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİRİ

***Серийя Сафар гызы Гусейнли***
*докторант по программе доктора философии*
*Азербайджанский Университет Языков*

# ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗЦОВ ИСКУССТВА В НАЧАЛЬНЫХ КЛАССАХ НА ПОВЫШЕНИЕ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

***Sariyya Safar Huseynli***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan University of Languages*

# EFFECTS OF THE USE OF ART SAMPLES IN PRIMARY SCHOOLS ON IMPROVING THE QUALITY OF EDUCATION

**Xülasə.** Məqalədə ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə müsbət təsirindən bəhs edilir. Müəllif incəsənət nümunələrinin məktəb həyatına daxil edilməsini bir sıra amillərlə izah edir və nümunələrdən istifadə edərkən hər bir şagirdin fərdi intellekt tipinin, xüsusiyyətlərinin, incəsənətin müxtəlif növlərinə olan marağının nəzərə alınmasını məqsədəuyğun hesab edir. Uşaqlar yenilikləri daha maraqla qarşılayırlar. Xüsusən də indi Vətən müharibəsi dövründə qazandığımız qələbə onları daha fədakar işlərə sövq edir. Bütün bunların tətbiqi estetik dünyagörüşünün, zövqün formalaşmasına, mənəvi keyfiyyətlərin yüksəlməsinə, həmçinin təlim prosesinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

***Açar sözlər:*** *ibtidai siniflər, incəsənət nümunələri, intellekt, estetik inkişaf, mənəvi keyfiyyətlər, keyfiyyətin yüksəldilməsi*

**Резюме.** В статье рассматривается положительное влияние использования образцов искусства в начальных классах на качество обучения. Включение произведений искусства в школьную жизнь автор излагает рядом факторов и считает целесообразным при использовании образцов учитывать индивидуальные особенности каждого ученика, его интерес к разным видам искусства. Детей больше интересуют инновации. Особенно сейчас, победа, одержанная в Отечественной войне, мотивирует их на более самоотверженный труд. Применение всего этого служит для формирования эстетического мировоззрения, вкуса, повышения нравственных качеств, а также улучшения качества учебного процесса.

***Ключевые слова:*** *начальные классы, образцы искусства, интеллект, эстетическое развитие, моральные качества, повышение качества*

**Summary:** The article discusses the positive impact of the use of art in primary school on the quality of education. The author explains the inclusion of works of art in school life by a number of factors, and considers it expedient to take into account the individual type of intelligence, characteristics, interest of each student in different types of art when using the samples. Children are more interested in innovations. Especially now, the victory we won during the Great Patriotic War motivates them to do more selfless work. The application of all this serves to form an aesthetic outlook, taste, increase moral qualities, as well as improve the quality of the learning process.

***Key words:*** *primary school, art samples, intellect, aesthetic development, moral qualities, quality improvement*

İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin aktuallığını özündə ehtiva edən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin başlıca vəzifələrindən biri milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaqdır. İctimai inkişafın keçid mərhələsində insanların həyatda öz yerini axtarıb tapmaq səyi təhsilin humanistləşdirilməsini, estetik dəyərlərin, incəsənətin və milli-mənəvi dəyərlərin yüksək səviyyədə təbliğ edlməsini tələb edir [1].

İncəsənət nümunələrindən təlim prosesində istifadə edilməsi pedaqoji, psixoloji və sosial xarakter daşıyır. İncəsənət nümunələrinin məktəb həyatına daxil edilməsi bir sıra amillərdən asılıdır. Birinci pedaqoji amil odur ki, bəşəriyyətin mənəvi təcrübəsi, əsasən, incəsənət vasitəsi ilə nəsildən - nəslə ötürülür və onların arasında əlaqə yaradılır. Xalqların mənəvi ənənələrini ifadə edən incəsənət nümunələri gənc nəsli neqativ təsirlərdən qoruyaraq, onları zorakılığı, qəddarlığı, millətçilik fikirlərini təbliğ edən və mənəviyyatına zərbə vuran mediadan qoruyur, aqressiv davranışın qarşısını alır.

İkinci psixoloji amil odur ki, dünyanın olduğu kimi dərk edilməsində, insanlara yalnız "bilik, bacarıq və qabiliyyət" daşıyıcısı kimi baxılmasının aradan qaldırılması və şəxsiyyətin formalaşmasında incəsənətin motivasiyaedici funksiyasının müəyyənləşdirilməsi ilə bağlıdır.

Üçüncü sosioloji amil isə ondan ibarətdir ki, incəsənət uşağa vahid dünya mənzərəsini yaratmağa kömək edir ki, bu da ona geniş həyat şəraitində baş verən hadisələri dərk etməyə, müəyyən qərar qəbul etməyə imkan verir.

Hazırda ümumtəhsil müəssisələrində incəsənət nümunələri "Təsviri incəsənət", "Musiqi" dərsləri və fakültativ məşğələlər vasitəsi ilə həyata keçirilir. Bunlar dərslərin inteqativ keçirilməsi ilə bağlı təlim prosesində geniş təbliğ olunur. Müşahidələr göstərir ki, digər fənlərin tədrisində də incəsənət nümunələrindən istifadə edilməsi təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir.

Bu problem haqqında A.M. Həsənov və Ə.Ə. Ağayevin fikirləri olduqca də-yərlidir. Onlar qeyd edirlər ki, estetik təfəkkürün tərbiyəsi vasitəsi ilə şagirdlər həqiqəti dərk etməyə istiqamətləndirilir, onların hiss və təxəyyülünə təsir edilir, həyatda tipik olan cəhətlərin dərk olunmasına, insanlara, hadisələrə, əşyalara münasibət yaradılır.

Estetik təfəkkürün tərbiyə olunması şagirdləri yaradıcılığa alışdırır və incəsənətin müxtəlif sahələrində onların yaradıcılıq qabiliyyətini inkişaf etdirir, təbiətə qayğı ilə yanaşmağı, onun gözəlliyindən zövq almağı öyrədir. Estetik təfəkkür tərbiyəsi insanların özünə bəxş etdiyi sevinci qiymətləndirməyə, bu sevincə nail olmaq üçün insanın həmişə öz ümumi mədəniyyətini yüksəltməyə, öz qabiliyyət və istedadını inkişaf etdirməyə xidmət edir [5, s.397]. Bu baxımdan da hələ kiçik yaşlarından uşaqlarda estetik zövqü inkişaf etdirmək üçün müxtəlif janrda musiqi əsərlərini dinləmək, dərk etmək, rəsm əsərlərinə baxıb onları təhlil etmək, qiymətləndirmək, onlardan zövq almağı bacarmaq, həmçinin öz qabiliyyətlərini nümayiş etdirməyə imkan yaratmaq ibtidai sinif müəlliminin vəzifəsidir.

İ.H. Cəbrayılov "Müasir təhsil: axtarışlar və perspektivlər" kitabında yazır: "Məlumdur ki, təhsil prosesi təkcə biliklərin qazanılması ilə məhdudlaşmır. Burada eyni zamanda mənəvi-əxlaqi keyfiyyətlər də əldə edilir, yəni təhsilalanlar həm də tərbiyəvi təsirlərin nəticəsində milli və bəşəri dəyərləri mənimsəmiş, fəal, müstəqil şəxsiyyət kimi formalaşırlar. Ona görə də təhsil müəssisələrində təlim-tərbiyə işinin vəhdətdə nəzərə alınması, müasir yanaşmaların daim diqqətlə saxlanılması vacibdir" [3, s.16].

Bu sahədə dəyərli araşdırmalar aparmış prof. V.C. Xəlilov incəsənətə bu cür tərif verir: "İncəsənət ictimai şüur formasıdır. Bəşəriyyətin yaratdığı mənəvi mədəniyyətin mühüm tərkib hissəsidir. Müxtəlif təbiət lövhələrini, ictimai həyat hadisələrini, insani münasibətləri müvafiq janrlar, bədii obrazlar vasitəsi ilə əks etdirir. Əlbəttə, bütün bunlar ayrı-ayrı incəsənət növlərinin istifadə vasitələri ilə mümkün olur. Musiqidə səslər, ritmlər, ədəbiyyatda sözlər, rəssamlıqda rənglər, heykəltəraşlıqda daş, gil, dəmir və formalar, forma çalarları ayrı-ayrı sənətkarların ustalığı, peşə məharətilə öz işini görür. Estetikaya, estetik tərbiyəyə və incəsənətşünaslığın əsaslarına həsr edilmiş kitablarda göstərilir ki,

bizim bu günlərə gəlib çatan incəsənətin daha geniş yayılan aşağıdakı növləri vardır:

1. Dekorativ-tətbiqi incəsənət
2. Memarlıq
3. Tətbiqi incəsənət
4. Musiqi
5. Bədii ədəbiyyat
6. Xoreoqrafiya
7. Teatr
8. Kino
9. Bədii fotoqrafiya [6, s. 178-179].

Müəllifin fikirlərindən bəhrələnərək tədqiqat prosesində ibtidai siniflərdə incəsənətin müxtəlif nümunələrindən istifadə etməklə bunun təlimin keyfiyyətinə nə dərəcədə təsir edəcəyini araşdırmağa qərar verdik.

Problemin psixoloji ədəbiyyatda qoyuluşuna da müraciət etdik. Professorlar Ə.S. Bayramov və Ə.Ə. Əlizadə "Psixologiya" dərsliyində qeyd etmişlər ki, son iyirmi ildə ibtidai siniflərdə təlim proqramının mənimsənilməsində çətinlik çəkən uşaqların sayı çoxalıb. Səbəb çoxdur, lakin bunlardan ən əsası psixi inkişafın zəifləməsidir. Valideynlər bu səbəbdən repititorlara, psixoterapevtlərə müraciət edirlər. Aparılan təhlil göstərdi ki, müasir uşaqlar 50-60-cı illərin uşaqlarından 2-3 dəfə az hərəkət edirlər. Uşaqların psixi inkişafının geri qalmasının ən əsas səbəbi, məhz hərəki aktivliyin lazımi səviyyədə olmamasındadır. Bunun mühüm səbəblərindən biri də uşaqların televizor, kompüter qarşısında çox oturması və əl telefonuna aludə olmasıdır.

Bu gün psixologiya elminə belə faktlar da məlumdur ki, xüsusi hərəki çalışmaların hesabına bəzi psixi funksiyaları (diqqət, hafizə, təfəkkür) konkret olaraq inkişaf etdirmək mümkündür.

Bu məsələdə hərəkətin rol və əhəmiyyəti çox böyükdür. Hamıya yaxşı məlumdur ki, insanın öz imkanlarını həyata keçirməsi onun yorğun və ya gümrah, xəstə, ya da sağlam olmasından asılıdır [2,s.596]. Buradan belə qənaətə gəlmək olar ki, incəsənət nümunələrindən istifadə etməklə ibtidai sinif şagirdləri mənəvi qida, zövq, ruh yüksəkliyi əldə etməklə yanaşı, rəqslərlə, tamaşalarla da fəal olurlar. Onların mənəvi və fiziki cəhətdən inkişafı ilə bərabər davranışları da cilalanır. Bütün bunlar uşaqlarda təlimə və məktəb həyatına böyük maraq yaradır, əqli, estetik və fiziki inkişafına müsbət təsir göstərir. Bu baxımdan da incəsənət nümunələrindən geniş istifadə etmək təlimin keyfiyyətinin yüksəlməsinə zəmin yaradır.

İntellektin çoxşaxəli nəzəriyyəsi birinci dəfə 1983-cü ildə amerikalı alim Q. Qardnerin "Əqlin strukturu: intellektin çoxşaxəli nəzəriyyəsi" kitabında şərh edilmişdir. Onun fikrincə, insan yalnız ümumi intellektə deyil, bununla yanaşı müstəqil qabiliyyətlərə malikdir. Müəllifin fikrincə verbal-linqvistik, musiqi-ritmik zəka, məntiqi və riyazi zəka, vizual-məkan zəkası, motor-hərəki zəka, şəxsiyyətlərarası zəka, şəxsiyyətdaxili zəka və təbiətşünas zəka intellektin meyarlarıdır.

İntellektin hər bir tipi özünü spesifik istedad, vərdiş və maraqlar vasitəsi ilə büruzə verir. Hər bir intellekt tipinin inkişafının gücləndirilməsi uşaqların təlim metodlarının əhəmiyyətindən və təlim prosesinin qurulmasından asılıdır ki, onlar öz maraq və imkanlarına müvafiq öyrənsinlər və uğurlu nəticə əldə etsinlər. Q. Qardnerin fikrincə, zəka - problemləri həll etmək, yaxud müəyyən və ya bir neçə mədəniyyətdə dəyər yaratmaq qabiliyyətidir [9]. Müəllifin fikrindən bəhrələnərək belə qənaətə gəlmək olar ki, incəsənət nümunələrindən istifadə edərkən hər bir şagirdin fərdi olaraq intellekt tipi və xüsusiyyətləri nəzərə alınmalıdır.

Beləliklə, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə etməyin təlimin keyfiyyətinin yüksəlməsinə müsbət təsiri aşağıdakı amillərlə izah olunur:

a) intellekt tipi, fərdi maraq və meyllərin nəzərə alınması;

b) yaradıcı fəaliyyətə meyl və maraqların yaradılması;

c) estetik hisslərin və qabiliyyətlərin aşılanması;

ç) sənət əsərlərinin təhlil edilməsi;

d) incəsənət nümunələrinin məzmununun və fəaliyyətin estetik dəyərinin dərk edilməsi;

e) asudə vaxtların məqsədyönlü və ardıcıl təşkili.

Bütün bunların tətbiqi keçilən fənlərə maraq yaradır, estetik dünyagörüşünün, zövqün formalaşmasına, mənəvi keyfiyyətlərin yüksəlməsinə, həmçinin təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Təlimin keyfiyyətinin yüksəldilməsi məqsədilə müstəqil qərar vermək, yaradıcılıq nümayiş etdirmək, mövzu və üsullar seçimi

etmək, həmçinin komanda ilə işləmək qabiliyyətlərini aşılamaq üçün ibtidai sinif şagirdlərinə sərbəstliyin və müvafiq məkanın verilməsi zəruridir. Təsviri incəsənət nümunələrinin digər fənlərin təlimində, həm də dərsdənkənar vaxtlarda qrup və kollektiv şəklində keçirilməsi daha uğurlu və maraqlı alınır. Təbiət materiallarından istifadə etməklə onlar həm sinif, həm də məktəbin interyeri üçün maraqlı aplikasiyalar düzəldirlər. Şagirdlər ümumi niyyətə əsaslanaraq daha gözəl əl işləri nümayiş etdirirlər. Bunlar mövzuya uyğun əşyavi, süjetli və dekorativ şəkildə təqdim edilir.

Şagirdlər irihəcmli işlər gördükdə özlərini daha yaradıcı hiss edir və ətraf aləmi düşündükləri və arzuladıqları kimi təsvir edirlər. Bununla da onlar kollektivdə özlərini təsdiq etmiş olurlar. Uşaqların yardıcılıq işləri həm özlərinə, həm ətrafdakılara, həm də təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Çünki onlar təlim prosesində öyrəndiklərini əl işlərində canlandırırlar.

Uşaqlar yenilikləri daha maraqla qarşılayırlar. Xüsusən də indi Vətən müharibəsi dövründə qazandığımız qələbə onları daha fədakar işlərə sövq edir. Vətən mövzusunda keçilən dərslərdə Şanlı Ordumuzun əsgərlərinin şücaətini rəsmlərində əks etdirir, onlar haqqında mahnılar, şeirlər öyrənir və şəhidlər haqqında məlumat toplayırlar.

Rəngli kağızlardan düzəldilmiş əşya və fiqurlar şagirdlərin təfəkkürünü və fantaziyasını inkişaf etdirir, onları maraqlı və özünəməxsus yaradıcı fəaliyyətə sövq edir. IV sinif şagirdləri "Azərbaycan milli geyimləri" mövzusunda rəngli kağızlardan istifadə edərək milli paltarlar düzəldərək sərgilərdə nümayiş etdirirlər.

"Həyat bilgisi" dərslərində mövzu ilə əlaqədar plastilindən, gildən və duzlu xəmirdən müxtəlif fiqurların düzəldilməsi, rənglənməsi və yaxud lak vurulması dərsə olan marağı artırır, dərsin keyfiyyətinə müsbət təsir göstərir. Təlim prosesində və təlimdənkənar vaxtlarda şam ağacının qozasından, payız yarpaqlarından, ağac kötüklərindən istifadə edilərək müxtəlif fiqurlar ərsəyə gətirirlər. Ev tapşırığı kimi uşaqlara aşağıdakılar tövsiyə olunur:

1. Payız yarpaqlarını, kiçik budaqları, ağac kötüklərindən parçaları, müxtəlif fiqurlara bənzər daşları seçib yığmaq.

2. İnsanların müxtəlif əhval-ruhiyyəsini, vəziyyətini, fiziki gücünü ifadə edən daş və ağac parçalarından istifadə etmək. Zərifliyi, ağırlığı və müxtəlif əhval-ruhiyyəni göstərmək.

Hazırda Covid 19 pandemiyasının bütün dünyada tüğyan etdiyi bir dövrdə dərslərin onlayn keçirilməsi məqbul sayılmışdır. Bu baxımdan təlimə marağın azalmaması üçün müxtəlif yaradıcı işlərə müraciət etmək məqsədəuyğundur. Bu halda təlimə maraq azalmır, şagirdlər verilən tapşırıqları məmnuniyyətlə yerinə yetirirlər.

II sinif üçün "Azərbaycan dili" kitabındakı "Kəpənək" hekayəsi təqdim edildikdən sonra uşaqlara verilən tapşırıq onların həm əhval-ruhiyyəsini artırır, həm də biliklərini genişləndirir.

"Yaz səhəri idi. Göydə günəş yanırdı. Çəməndə rəngbərəng kəpənəklər uçurdu: ağ, sarı, qırmızı və qara.

Birdən böyük bir quş uçub gəldi. Kəpənəkləri tutub yemək istədi. Kəpənəklər qorxdular, çiçəklərin üzərinə qondular. Ağ kəpənək çobanyastığının, sarı kəpənək zəncirotunun, qırmızı kəpənək lalənin üstünə, qara kəpənək isə ağacın gövdəsinə qondu. Quş çəməndə xeyli uçdu, amma kəpənəkləri görmədi"[7, s.205].

Mövzu ilə əlaqədar uşaqlara həmin güllərin və kəpənəklərin şəklini çəkmək təklif edilir.

Şəkillər təqdim edildikdən sonra rənglərdən və güllərin kağız üzərində necə yerləşdirildiyini nümunə üçün göstərmək məqsədilə Toğrul Nərimanbəyovun "Raketkalar və Tülpanlar" əsəri (rənglərin gözəlliyi, həyat sevinci) şagirdlərə nümayiş etdirilir.



III sinif üçün "Azərbaycan dili" kitabındakı "Tənha qu quşu" hekayəsinə dair verilən tapşırıq şagirdlər tərəfindən maraqla qarşılanır. Təkəbbürlü hərəkətlərə yol verməməyə və dostlarla səmimi olmağa sövq edən bu hekayə üzrə də uşaqlara düşündükləri kimi rəsm çəkmək tapşırığı onlarda öz hisslərini şəkil üzərində göstərməyə imkan verir.

Şagirdlər "Azərbaycan dili", "Həyat bilgisi" və "Əmək təlimi" fənləri üzrə keçilən mövzulardan yeni rəsmlər çəkməklə fənni dərindən öyrənir ki, bu da onun dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir və təlimin keyfiyyətini yüksəldir. Rənglərlə işləmək uşaqlara xüsusi zövq verir, onların əhval-ryhiyyəsini yüksəldir. Şagirdlər dərk edirlər ki, rənglər vasitəsi ilə sevinci, kədəri, zərifliyi ifadə etmək, xalqımızın keçmişdən bu günə kimi gələn mədəniyyətini tərənnüm etmək olar. Məsələn, III sinfin "Azərbaycan dili" kitabında [8, s. 131,197] verilmiş xalçanın elementlərini çəkməkdən uşaqlar böyük zövq almaqla yanaşı, ölkəmizin qədim mədəniyyətə malik olduğunu, Azərbaycan xalçalarının bənzərsizliyini dərk edir, naxışları müqayisə edir, həm də materialı yaxşı mənimsəyirlər. Yaradıcı, emosional təlim prosesi şagirdlərdə əzmkarlığı, iradəni, təfəkkürü inkişaf etdirir və onlarda kollektivdə birgə işləmək, bir-biri ilə razılaşmaq, güzəştə getmək kimi keyfiyyətləri formalaşdırır.

Ənənəvi dərslərdən fərqli olaraq təlim prosesinə oyun elementlərinin daxil edilməsi bütün sinif şagirdlərinin diqqətini cəlb edir. Oyun prosesində uşaqlar özünü ifadə etməyə çalışır. Deməli o, inkişaf edir. Oyunlardan istifadə etmək uşaqların diqqətini fəallaşdırmağa, iştirakçıların yaradıcı fəaliyyətə cəlb olunmasına imkan verir. "Kim bir rəngin daha çox çalarlarını göstərə bilər?" oyununda şagirdlər iki komandaya ayrılır. Onlar rəngləri qarışdırır, yeni çalarlar alaraq onu adlandırırlar, hər hansı rəngi yeganə rəng kimi qəbul etmir və şüurlu olaraq onun zərif çalarlarını fərqləndirir. Sonda hansı komanda daha çox rəng çalarları göstərirsə, qalib hesab edilir. Bu da təsviri incəsənətdə stereotiplərdən uzaqlaşmağa imkan verir. Buna misal olaraq məşhur rəssam Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşı" əsərini nümayiş etdirmək və müəllifin göy rəngin çalarlarından necə istifadə etdiyini göstərmək yerinə düşər [4, s.11].

Bununla yanaşı, uşaqlara sözləri Baba Vəziroğluna və musiqisi Sevinc To-fiqqızına məxsus "Gəncədə" mahnısı təqdim edilir.

Müəyyən qədər təcrübə əldə edildikdən sonra şagirdlərə "Bizim şəkillərimiz" mövzusunda oyun təklif etmək təlim prosesini daha da canlandırır. Uşaqlar iki komandaya bölünür. Onların şəkilləri lövhədən asılır. Komandadan bir nəfər seçilir. Onlar komanda ilə birlikdə fikir mübadiləsi apararaq öz şəkilləri haqqında ümumiləşmiş nəticəyə gəlir və seçilmiş bir nəfər öz işlərini təqdim edir. Sinif uşaqları isə onları qiymətləndirirlər. Müəllim çalışır ki, uşaqlar hər bir komandanın işinə diqqətlə yanaşsınlar və heç kimin işinə kölgə salmasınlar. Sonda müəllim hər bir şagirdin işini qiymətləndirərək onun hansı mövzuya daha çox marağı olduğunu vurğulayır, çatışmazlıqları onların diqqətinə çatdırır və rəğbətləndirir.

Dərslərin qeyri-ənənəvi keçirilməsi uşaqlar üçün öz qabiliyyətlərini nümayiş etdirməyə geniş imkan yaradır. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə qeyri-ənənəvi dərslər prosesində daha yaxşı nəticə verir:

1. Didaktik oyunlar
2. Binar dərslər
3.Səhnələşdirilmiş dərs
4.Yaradıcı layihələr
5. İKT-dən istifadə

Bu dərslərdə şagirdlər fəal surətdə fikirləşir, onlarda iradə və yaşıdları ilə birgə işləmək həvəsi yaranır. Quru ot və güllərdən çox maraqlı kompozisiyalar düzəldirlər. Əmək təlimi dərslərində bu materiallarla işləmək uşaqlara xüsusi zövq verir. Həmçinin traktor, maşın, təyyarə modellərinin sxemini çəkmək də onlar üçün maraqlı olur.

Layihə metodu təlim prosesini fərdiləşdirməyə, planlaşmada müstəqillik göstərməyə, öz fəaliyyətinə nəzarət etməyə və təşkil etməyə imkan verir. Şagirdlərin seçimi ilə layihə müxtəlif mövzular üzrə yerinə yetirilir: gil işi, dizayn, dekorativ incəsənət və s. Layihə metoduna kiçik tədqiqat işi və onun nəzəri cəhətdən əsaslandırılması daxil edilir. Hər bir şagird sinif qarşısında öz layihəsinin təqdimatını keçirir, onun praktik və bədii dəyərini izah edirlər. Layihə metodu uşaqların fərdiliyini və potensial imkanlarını qorumağa imkan verir.

Yeni materialın təqdim edilməsində kompüter texnologiyalarından istifadənin böyük rolu vardır. Kompüter materialın məzmununun dəyişilməsinə və zənginləşdirilməsinə imkan yaradır. Kompüterin köməyi ilə müəllim uşaqları dahi rəssamların, heykəltəraşların, musiqiçilərin, xalça toxucularının yaradıcılığı ilə tanış edir. Uşaqlar tədqiqat işi ilə məşğul olur. Kompüter texnologiyaları fərdi və qruplarla iş formalarını optimal surətdə birləşdirməyə imkan verir. Qrup işləri daha müvəffəqiyyətlə keçir. Mövzuların öyrənilməsində uşaqlar çox mehribanlıq və birlik nümayiş etdirirlər. Hər biri öz tapşırığını layiqincə yerinə yetirir. Təqdimatlar rəngarəng və məzmunlu alınır.

Beləliklə, fənlərin tədrisində təsviri fəaliyyət, musiqi və səhnələşdirilmiş tamaşalar əsasında ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə modelinin tətbiq olunması idrak fəallığının yüksəldilməsinə, şagirdlərin intellektual, emosional, sosial inkişafına, ümumilikdə, təlimin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin müstəqil yaradıcı keyfiyyətlərinin və şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

**Problemin aktuallığı:** Bu gün böyüməkdə olan nəslin yaradıcı təfəkkürə malik şəxsiyyət kimi formalaşması və inkişafına konseptual yanaşılması zərurəti meydana çıxmışdır. Buna görə də təlim prosesində incəsənət nümunələrindən istifadə edilməsi təlimin keyfiyyətinin yüksəldilməsinə zəmin yaradır. Yaradıcı qabiliyyətlərin düzgün inkişaf etdirilməsi mühüm vəzifədir. Bu vəzifənin yerinə yetirilməsində incəsənət nümunələrindən istifadə edilməsinin əhəmiyyəti böyükdür.

**Problemin elmi əhəmiyyəti:** İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinin yüksəldilməsinə təsiri nəzəri cəhətdən əsaslandırılır, şagirdlərin yaradıcılıq qabiliyyətlərinin və mədəni keyfiyyətlərinin formalaşmasında incəsənət nümunələrinin rolu və yeri göstərilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi:** Tədqiqatın nəticələrindən tədris resurslarının hazırlanmasında, təlim və tərbiyə prosesində istifadə oluna bilər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz.., 2013, 25 oktyabr, № 41
2. Bayramov Ə.S., Ə.Ə.Əlizadə Ə.Ə. Psixologiya. Bakı: ÇİNAR-ÇAP 2002, 620 s.
3. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013, 296 s.
4. Cəlilova Y., Cəfərzadə K. Təsviri incəsənət. Bakı: Yaznəşr, 2014, 56 s.
5. Həsənov A.M., Ağayev Ə.M. Pedaqogika. Bakı: Naşir, 2007, 496 s.
6. Xəlilov V.C. Seçilmiş əsərləri. IX cild. Bakı: Nərgiz, 2013, 264 s.
7. İsmayılov,R., Orucova, G., Xəlilov, Z., Cəfərova, D. Azərbaycan dili II sinif. Bakı: Altun kitab, 2018, 207 s.
8. İsmayılov,R., Orucova, G., Xəlilov, Z., Cəfərova, D. Azərbaycan dili: III sinif. Bakı: Altun kitab, 2018, 207 s.
9. Гагднер, Г. https://lektsii.net/3-27234.html


**E-mail:** huseynli_s94@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **Ş.Ş. Tahirova,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**

**Redaksiyaya daxil olub**: 03.12.2020